# Vətən boyda ürək...

## Şəhid Amin Mayis oğlu Gülməmmədovun ad gününə

***Vətən boyda ürək... Bu cümlənin mənəvi böyüklüyü, dəyəri elə vətən boydadır. Bəs bu ürəyin döyüntüsünə şəhid olanlar kimdir? Hər kəs o döyüntünü duya bilərmi? "Xeyr" - dediyinizi duyar kimi hiss etdim. Nə hər kəs vətən boyda ürək daşımaz, nə də hər kəs o döyüntünü hiss etməz. Torpaq Aminin vətən üçün çırpınan ürəyinin son dəfə döyüntüsünü hiss etdiyi kimi Aminin də ruhu şəhid həsrəti ilə döyünən qəlbimin döyüntüsünü hiss etdi. O an oradaca zamanın durmasını istədim.***

***Hər dəfə Aminin adını duyduğumda sanki illərlə tanıdığım bir insandan söhbət gedirmiş kimi hiss edirdim. Bu həm qəlbimdə yer edən şəhid sevgisindən irəli gəlirdi, həm də Aminin ailəsinin doğmalığından. Dərdləri nə qədər böyük olsa da qəlblərinə sevgi ilə sakin etmişdilər məni Şəhid atası və Şəhid anası. Onları tanıdıqca Aminin vətən sevgisinin təməlinin hardan qaynaqlandığını daha aydın sezirdim. Belə valideynlərin övladı da elə Amin kimi qəhrəman olmalı idi.***

Gülməmmədov Amin Mayis oğlu bir bacıdan sonra dünyaya göz açan əkiz qardaşlardan biridir. Qardaşı Ramindən 20 dəqiqə sonra dünyaya göz açdığı üçün valideynləri Amini sonbeşik övlad kimi əzizləmişdirlər.

31 iyul 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Saltaq kəndində dünyaya göz açan Amin və Raminin həm bənzər, həm də fərqli cəhətləri olmuşdur. Amin daha çılğın, mehriban, gülərüz xüsusiyyətləri ilə fərqlənməyə bacarmışdır. Qəlbə tez yol tapmağı onun özünəməxsusluğundan irəli gəlmişdir.

2001-ci ildə Saltaq kənd tam orta məktəbinə qədəm qoyan şagirdlər sırasında əkiz qardaşlar da yer almışdılar. Çevik, cəld, biraz da dəcəl olan Amin səmimiliyi ilə məktəbdə də hər kəsin qəlbinə yol tapmağı bacarmışdır. Gözlərinin gülüşü ilə ətrafını gözəlləşdirməyi bacaran bu oğul vətən nisgilinə ürəyinin ən dərinində ruhu ilə keşik çəkmişdir.

Amin də vətən dərdi ilə bərabər böyümüşdür. Naxçıvanın hər daşında, qayasında düşmənin açdığı sağalmaz yaraları çox görmüşdür. Hər dəfə ata-anasına vətənlə, Qarabağla bağlı suallar verəndə gözlərindən yan qaçan baxışların ondan gizlənən göz yaşları olduğunu bilsə də bəlli etməmişdir. Ancaq bir gün o gözlərə dik baxmaq üçün bütün gəncliyini, gələcəyini vətənə fəda edəcəyini bilərəkdən hərbçi peşəsini seçmişdir.

Şərəfli yolun başlanğıcı 2010-cu ildə başlamışdır. Amin Heydər Əliyev adına Hərbi liseyə ilk addım atdığı zaman o yolun dönüşünün olmayacağını təxmin etmişdir. "Son nəfəsimə qədər vətənin keşiyində duracam." deyən Amin sözünü tutdu.

İntizar ana Aminə daha çox jurnalist peşəsini yaraşdırırmış. Hər dəfə oğluna kənd-kənd, şəhər-şəhər gəzib verlişlər hazırlayaraq insanları tanıtmağını istədiyini deyirmiş. Ancaq Amin özü bir qəhrəman kimi tanındı.

Amin hərbçi peşəsini seçdiyi gündən ailəsinin həsrəti başlamışdır. O həsrət hər kəsə ağır gəlirdi. Ata-ana artıq övladlarının vətənlə izdivac bağladığını gözəl bilirdilər. Ancaq Amindən ayrı düşən əkiz qardaşı Ramin üçün bu həsrət daha ağır idi. Amini özünə sirdaş bilən Aminə üçün də qardaşından uzaq yaşamaq asan deyildi. Ancaq bu həsrətin əbədi ayrılıqla nəticələnəcəyini heç kim düşünmür və ya düşünmək istəmirdi.

Amin 2013-cü ildə Heydər Əliyev adına Hərbi liseyi uğurla bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. Öhdəliklərini bilən, bütün addımları düşünüb atan Amin vətənə layiqli zabit olmaq üçün hər vəchlə çalışmışdır. Dörd illik hərbi təhsilini 2017-ci ildə leytenant hərbi rütbəsi alaraq tamamlamışdır.




***Vətən səngəri - əsil vətən övladlarının özlərinə ev-eşik saydıqları ünvan. O evin isti döşəməsi olmur. Ancaq nəm torpaq o qədər doğma gəlir ki, sanki ən yumşaq yataqmış kimi hiss edirsən. Qaranlıq gecələrdə göydə süzən ulduzlar tək sirdaşı olur vətənlə əhd - peyman bağlayan vətən əsirinin. Amin də üç il vətən səngərində gecə-gündüz demədən ömür sürmüşdür. Füzuli rayonunun Alxanlı kəndində düşmənlə üz-üzə dayanıb vətənə sipər olan Amin daha sonra Şükürbəylidə yerləşən N saylı hərbi hissədə xidmət etmiş, daha sonra təkrar Alxanlı kəndində yerləşən N saylı hərbi hissədə xidmətini davam etdirmişdir. Aminin öndə amalı təslim olmaq yox, təslim etmək olmuşdur.***

2019-cu il fevralın 5-də Amin 1 aylıq məzuniyyətə göndərilmişdir. Ancaq məzuniyyətinin 1-ci həftəsində tabeliyində olan əsgərin şəhid olmasını eşidən an məzuniyyətini yarımçıq saxlayıb işinə geri dönmüşdür. O gediş Aminin evindən son gedişi olmuşdur.

Aminin ön cəbhədə düşmənlə üzbəüz dayandığını bilən ailəsi hər zaman narahat olmuşdular. Ancaq Amin heç zaman arxa cəbhədə xidmət etməklə razılaşmamışdır. "Hər əsgər bir ailənin oğludur. Mən də onlardan biriyəm. Mən olmasam digər əsgər düşmənlə üz-üzə duracaq. O əsgərin də yolunu gözləyənlər var." deyən Amin çətinliyə sinə gəlmişdir.

Amin Gülməmmədov hər zaman xidməti vəzifəsini layiqincə icra etmişdir. Elə bunun nəticəsi idi ki, o 2020-ci ilin may ayında baş leytenant hərbi rütbəsinə layiq görülmüşdür. Cəbhədə günbəgün artan gərginliyin müharibə ilə nəticələnə biləcəyini də düşünən Amin təlimlər zamanı hər bir əsgərin hərbi biliyinin artırılması üçün çalışmışdır.

26 sentyabrda Amin doğmalarına zəng edib. Hər kəs ilə tək-tək danışıb və hər şeyin yaxşı olduğunu deyib. Əslində isə o zəngi etməkdə məqsəd vida etmək olub. Amin bilirdi ki, ilk hücuma keçən onların dəstəsi olacaq. Elə də olub. 27 sentyabrda müharibə başlayan ilk andan Amin öndə gedənlərdən biri olub. Füzulidən başlayan döyüş yolu Cəbrayıl, Qubadlı, Xocavənddən keçib Şuşaya çatıb. O yolda Amin yaralanmasına baxmayaraq döyüşlərə davam edib.

29 sentyabrda Gülməmmədovlar ailəsinin yeni üzvü dünyaya göz açıb. Həmin gün Amin zəng edib bacısını ana olmağı münasibəti ilə təbrik edib. Körpənin adına Əli adını yaraşdırdığını deyib. Həmin gün Amin ilk dəfə Mayis müəllimə vəziyyətin nə qədər gərgin olduğunu bu sözlərlə deyib. "Ata, hər xəbərə hazır ol. Anama və bacı-qardaşına bu barədə bir kəlmə də demə. Ancaq bu bizim son danışığımız ola bilər."

Amin döyüşün ən sərt üzünü görənlərdən biri olub. Oktyabrın 6-da onların dəstəsi mühasirəyə düşüb. 4 - gün mühasirədə qalan Amin və dəstəsi mühasirədən çıxmağı bacarıb. Döyüşlərdən birində Amin qolundan yaralanıb. İlkin tibbi yardım göstərildikdən sonra o israrla təkrar döyüşlərə qayıdıb. Qolunun yaralı olduğu səbəbindən silah tuta bilməsə də çoxsaylı yaralıları və şəhidləri ərazidən çıxarmağa nail olub. Oktyabrın 20-də ailəsinə zəng edən zaman telefonunun zədələndiyini deyib. Bəlkə də elə telefon onu həmin an xilas edibmiş.

***Döyüş gedən vaxt oktyabrın 14-də Amin bölük komandiri təyin edilib. Hər kəsin güvənini qazanan Aminin getdiyi yolda ardınca gedən əsgərlər bir an belə tərəddüd etməyiblər. Onlar Aminin necə bir komandir olduğunu yaxşı biliblər. Elə ona görə də ən öndə gedən Aminin dəstəsi olub.***

Amin noyabrın 1-də zəng edən zaman "Ata, Şuşaya 2 km məsafə qalıb. 3-4 günlük işimiz qalıb. Bitirib dönəcəyik." deyib. O gündən sonra Amindən bir daha zəng gəlməyib. Sonradan məlum olub ki, Amin bir neçə silahdaşı ilə bərabər noyabrın 2-də Qırmızıbazar istiqamətində şəhid olub. Ancaq bu xəbər çox uzun müddət sonra təsdiqini tapıb. O zaman kəsiyində isə Mayis müəllim eşitdiyi təzad yaradan xəbərlərlə günbəgün yaralanır. Ancaq o bu xəbərlər təsdiqini tapmadığı üçün heç kimə bu barədə heç bir söz demir. Oğul axtarışına çıxan atanın gecəsi gündüzlə yer dəyişir. Dekabrın 4-də ataya zəng edərək Aminin şəhid olduğu və düşmən nəzarətində olan istiqamətdə olduğu deyilir. Dekabrın 9-da Amin və digər şəhidlərin nəşləri götürülür və Füzuliyə gətirilir. 10 dekabrda Mayis müəllim həyatın ən çətin anı ilə üz-üzə qalır. Amini görən anda oğlu olduğunu bilsə də prosedur qaydalarına uyğun olaraq DNK analizi verməli olur. Oğlunun şəhid olduğunu bildiyi halda 15 gün o analizin cavabını gözləmək Mayis müəllim üçün izah edilə bilməyəcək qədər çətin olur. Analiz verdikdən sonra Naxçıvana geri dönən ata gördükləri və yaşadıqları barədə heç kimə heç bir söz demir. (Bu qəlb yükünü necə daşıdınız, Şəhid atası?) Biçarə halda oğlundan xəbər gözləyən İntizar anaya qəlbi yana-yana yenə də ümid verməyə çalışır Mayis müəllim. Ancaq 25 dekabrda gələn zəng zamanı səbri çarmıxa çəkilən Şəhid anası telefona özü cavab verir. "Amin şəhid olub. Bütün nəticələr bunu təsdiq etdi." sözlərini duyan ana bir anda sanki uçuruma yuvarlanır. (Həmin gün yaşanılan duyğuları nə ailənin danışmağa gücü yetmədi, nə də mənim yazmağa sözüm yetməz.)

28 dekabrda vətən ağırlıqda bir şəhid cənazəsi Culfa rayonunun Saltaq kəndinə yol alır. Sinəsindən 3 güllə yarası alaraq şəhid olan Amin torpağın sinəsində sağalmaz yara açır. Onu sevənlərin qəlb yarası kimi dərin və sağalmaz yara...

Baş leytenant Gülməmmədov Amin Mayis oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Xocavəndin azad olunmasına görə medalı" ilə təltif edilib.

***Amin şəhidlərin ölməzliyini, ruhən bu həyatda var olduqlarını hər zaman hiss etdirir. İlk dəfə 2021-ci ildə Ramazan ayının 27-ci günündə atası onun cənnət qoxusunu duyub və nəfəsini hiss edib. Dəfələrlə Namaz vaxtı Aminin yanında hiss edən Şəhid atasının yeganə təsəllisi elə o varlığı hiss etməkdir. Amin əkiz qardaşı Raminə də varlığını hər zaman hiss etdirir. Canlı - canlı sanki bir yarısını dəfn edən Ramin o həsrəti iliklərinə qədər hiss edir. Bir əkiz üçün əkiz tayını itirmək çox çətin və dözülməzdir. Bir də gözü yollarda qalan şəhid anası var. Kim o anaya Amin ola bilər ki? Aminin bənzərini böyüdən Aminə isə bir gün Əlinin Amin kimi bir qəhrəman olacağı xəyallarına tutunub. Hər kəsin həyatında Aminin yeri boş qalıb. O boşluq heç bir zaman dolmayacaq.***

***Həyatda heç zaman görmədiyimiz insanla da doğmalaşmaq olar. Hətta onun məzarının həsrətini çəkmək və həmin məzarı gördüyün an sanki bir doğma insanına sarılırmışsan kimi hiss edirsən. Bir də o məzar önündə şəhid qoxulu ata - anaya sarılırsan. O an ürəkdə həm kədər, həm sevinc eyni anda baş qaldırır.***

**Manya Səxavətqızı**

### Şəhid Amin

**Adına biz "Vətən" deyirik sənin,**
**Məğrur igidisən sən bu vətənin.**
**İllərin qisasını alan şəhidtək,**
**Naxçıvan elinə döndün sən, Amin.**

**Səni vəsf etməyə kəlmələr aciz,**
**Vətən məhəbbətin sanki bir dəniz.**
**Səninək igidi olan bir vətən,**
**Düşmən tapdağında qalmazdı aciz.**

**Dedin "Xilas edib biz Qarabağı,**
**Köksünə sancarıq şanlı bayrağı."**
**Bu arzu yolunda inamla gedib,**
**Düşmən ürəyinə çəkmisən dağı.**

**Bilirdin bu yolda şəhadət də var,**
**Geridə qalanlar çəkəcək qübar.**
**Bir payız vətənə can qurban etdin,**
**Səni sevənlərçün gəlmədi bahar.**

**Şəhadət xəbərin çatdı elinə,**
**Naxçıvan qərq oldu kədər selinə.**
**Aylarla yoluna dikildi gözlər,**
**Sükutun dağ çəkdi ata qəlbinə.**

**Ananın ürəyi yandı - alışdı,**
**Bir günə çöhrəsi dərddən qırışdı.**
**Dedi "Mənim oğlum bu vətən üçün,**
**Son nəfəsə qədər mərdtək vuruşdu."**

**Ümidin itirdi əkiz qardaşın,**
**Həm dostun, həm də ki, yaxın sirdaşın.**
**Ürəyə elə bil xəncər saplandı,**
**Duyduqca bacının o hayqırışın.**

**Şəhid el yolunda yandığı kimi,**
**O dərddə yandırar elin qəlbini.**
**Xocavənd, Şuşaya qədəm qoyanlar,**
**Qəhrəman şəhidtək anır Amini.**